**A. ELYAR**

# SUMER QIZI



Uruk



Ki-en-gir qadını

1

NAMA

*NAMA-nın göydəki mavi qəsri, mələklər gəliş-gedişdə; sil-süpür və bəzək-düzək edib, içməli su şərbət... Yer-yemiş hazırlayalar.*

**LAMA VƏ NAMA**

NAMA :
-Nə bir məkan var idi
Nə də bir zaman
Nə bir günəş var idi
Nə də bir gündüz.
Var idi bir qaranlıq
Bir də bir Me
Doğub doğuldum
Bir dəniz qaranlıqda mən.

Ana-yam, ME-yə mən
Anamdır Me
Doğub doğuldum işıqlarda mən
Balamdır mənim hamı tanrılar
Yaratmışam yer-göyü, hər zadı mən.

Ana-yam bütün Me-lərə mən.
Me məndədir, Me-yəm mən.

Bir əlimdə uşaq
Bir əlimdə cahan
Belə dolanır nəzm-e-kainat
Anadır, ana,  bütün Me-lərə
Anadır, ana,  bütün kainata.

**

Yaratma otağında, yaratdım sizi
Yaratma evində bəzədim sizi.

Ay! Zamandan yüksək
Məkandan uca Mələklər!
Gəlin buraya
Yığışın araya
Sizə bir sözüm var,  mələklər:

Yemirsiniz, yeməyin
İçmirsiniz, içməyin
Gərəkli deyil mələklər.
Hər nə yeyirsiniz, yeyin
Hər nə içirsiniz, için
Gərəkli deyil mələklər.
Amma  ixtiyar şərbətinə
NAM suyuna
Əl vurmayın mələklər.

Qocalığı sizdən aldım
Gəncliliyi sizə verdim
Ölümü sizdən aldım
Yaşamı sizə verdim
Amma ixtiyar şərbətinə,
NAM suyuna
Əl vurmayın mələklər.
İxtiyarınız əlimdən gedər
Yenib düşərsiniz  zamana
Məkana mələklər...



Lama

*Səhərə yaxın, baş mələk, LAMA,  səs salıb hamını yuxudan oyatdı.*
LAMA:
-Ay tanrıların tanrısı
Yüksək Nama
Yer- göyü yaradan
İnsanı mələyi var edən
Yüksək ana.
Ay havar, fəğan ,yatıbsan oyan
Darıxdım bu qəfəsdə ,bu son nəfəsdə!
İçərim yanarkən, içdim NAM suyunu
İtirmişəm hal- xoyumu.

Yatıbsan oyan , yüksək Nama!
İçdim NAM suyunu, Nam-lı deyirəm
Elə bil daha mən, qəsrdə qalan deyiləm.
Gəl halallaşaq,  yüksək Nama!

NAMA :
-Vay! Yazıqsan bala
Səni nə deyim olmayasan Lama
Mən sənə demədim əl vurma suya?
Vay! Əldən çıxdın
Yenib düşdün zamana, məkana Lama!

Ay pərilər! Ay mələklər
Gəlin halallaşın yüksək LAMA-dan
Qəsrdə qalan olmadı LAMA
Sözümə baxan olmadı LAMA!
NAM sahabı olub mələyim
Göylərdən getməli LAMA!

*LAMA ulduz kimi göylərdə süzüb gəlir. An, göy tanrısı, onun qabağını kəsir:*
**LAMA VƏ AN**

**An:**
-Ay yanağı qırmızı, elimin mavi qızı
Ay gülüşü güldən, qanadı gümüşdən
Hayandan gəlirsən , hayana gedirsən?

**Lama:**
-Ay mavilərin tanrısı , yüksək An-ım
Qəsrdən gəlirəm, haraya gedirəm, bilmirəm canım.
Ancaq darıxmışam, bəlkə də qarışmışam
Hayana gedirəm, bilmirəm An` ım .
**AN:**
-Sinədən yuxarı mələk,
Sinədən aşağı aslan
Ki-en-girin ulduzu, elimin aslan qızı
Əgər sorğum haqq olsa, de görüm dərdin nədir?
Cilddən cildə düşən, mələkliyi itirməyən
Qoçaqlığa misal düşən, aslanı qaplanı elin.
Əgər sorğum haqq olsa, de görüm dərdin nədir?

Mavi yaşıl qırmızı, elimin aslan qızı
Əlimdən gələn yardım , sevgi ilə sənin olsun
Dərdinə çara yoxsa , çarələr sənin olsun.

**LAMA:**
-Ay sevgili An-ım, sənə qurban mənim canım
Içdim NAM suyunu, öz evimdə yad oldum
Çox sağ olun, çoxda var, görüşündən şad oldum
Arxa bildim An-ımızı, unutmaram sevginizi
Hara getsəm dayağımsan, isti könül ocağımsan.
**AN:**
-Get zamana çarə, tap məkana çarə! *
Mavi yaşıl qırmızı, elimin aslan qızı
Get yolun açıq olsun, çarələr sənin olsun.

2

**Lama və Tanrılar**

**Mələklər:**
-Saysız- saysız mənzilləri, kəsib gəldin yorğun Lama
Uzaq- uzaq ulduzları, geçib gəldin vurğun Lama.
*
**UTU:**
-Qoy olsun ərməğan sənə, qızıl-qızıl gündüzlərim.
**NANNA:**
Qoy olsun ərməğan sənə, gümüş-gümüş gecələrim.
**İNANNA:**
Hədiyyədir sevgim sənə, hədiyyədir barış sənə
Barış üçün, hədiyyədir kəlam sənə, təlaş sənə.
*
**Kİ:**
-Yer üzündə insan oğlu, qoy olsun sevgili sənə.
*
**ENLİL:**
-İnsana NAM verilib, sənə NAM
Yerə gedirsən, yer üzün bəzə
İnsanın payamın, al gətir bizə.
**UTU:**
-Bax! Ədalət hökmran olsun
Yaxşı-pis öz yerin alsın,
Dostluq hökmdar olsun.
**LAMA:**
Uca-uca tanrılarım, yüksək-yüksək mələklərim
İstəyiniz unudulmaz, söz verirəm əzizlərim
Xoş gəldiniz  tanrılarım, xoş gəldiniz mələklərim.

3

**DUB (lövhə)**
**NANŞE yazır:**

*LU-GAL-MARAH və Yaşam ağacı*

**URUK**

*LUGAL-MARAH dedi:*
-Çağırın İŞİB-i buraya gəlsin
O yetdi kişini, bir yerdə yoxladanı
Əqrəbi ilanı tülkünü aslanı, yerində oxladanı.
O böyük füsunkara, deyin buraya gəlsin.



yaşayış ağacı

*İŞİB gəldi.*

-Get göndər LU-LI-LA-nı, qırsın yaşam ağacından söz budağını!
ABGAL-ŞİMU,  qızıl-gümüşü ocaqlara yığıb bizə bir şey çatmır.
Belə bir iş ola bilməz,  belə bir iş başa getməz . Ölkə altın siz dolana bilməz.
O çox danışır, az bilir. Çirkin qul qaravaşı , boşlu əkinçiləri, mal-davar yiyəsini, sənətçiləri, anlamaz insanları yoldan edir;  mənimlə vuruşa hazırlayır.
Ölkədə danışıq lazım deyil. İnsan sözsüz də tanrılara ibadət edə bilər.
Gedin böyük ocağa, o heyvana deyin, qızıl-gümüş yarı-yarıya bölünsün. Qəbul etməzsə, söz budağını qırın!

**SABITU**  yuxuya gedərkən, yel ağa, LU-LI-LA, budağı qırdı. Söz budağı qırılarkən LUGAL-ın da dili bağlandı!
İŞİB hər iş gördü çarə bilinmədi!
**
O gündən, günlər həftələr, aylar illər keçdi...

Ağızlar bağlanarkən könüllər itirdi söz- sözcüyünü.
Qulaqlar itirdi səs-səmirini.
Günlər günəşsiz qaldı, gecələr gündüzsüz.
İllər fəsilsiz qaldı, ağaclar hasilsiz.
Uşaqlar itirdi ana-atanı, ürəklər itirdi məhəbbət sevgini.
Çöl heyvansız, pəyə malsız, can yuxusuz, yer yağışsız qaldı; ilanlar yuvada mələdi...
*
Sinələr havasız qalarkən, kütlə hücum etdi qəsrə, LU-QAL-MARAH düşdü qəfəsə.
Onu atdılar bir uzaq dağa, həsrət qaldı ocağa bağa. Yalqız qalarkən düşüb öldü.
Cəndəyini qurd-quş böldü.
Canavar balasına, ət-qan oldu, LU-QAL-MARAH .

**LUQAL-ŞİMU**

**LUQAL-ŞİMU VƏ NUGİA-lar**
Kahin, LU-GAL-MARAH-ın taxtını yıxdı. Öz adını LUQAL-ŞİMU qoydu.
*

LUQAL-ŞİMU  otağında gəzir və öz-özünlə danışır:
-ME ilə qızıl , birləşə gərək .Tanrılar ME  ilə birləşən tək.
Amma bu ac-ucun əlindən necə qurtulum mən?
Bunlar az qalır  məni də yesinlər.  ME-yi bölsünlər, qızıl-gümüşü, xoş yaşamı da!
Yox! Hər ata bir cilov, hər sürüyə, bir çoban lazımdır. Qul-qaravaş, ac-uc, nə bilir güc nədir, ağalıq nədir.

**

Bu arada LUGAL-ŞİMU-ya,  xəbər gətirdilər:
-Qul-qaravaş yor-yoxsul, hamı birləşib  qıyam ediblər; azadlıq istəyərlər.
Hər iki tərəfdən çox adam ölübdür.
O tələsik  yaxın adamlarını çağırıb tədbir istədi. Hami birlikdə dedilər:
-«NUGİA» `lar!
Kahin NAMTAR-ı qasid edib EREŞKİQAL və NERİGAL-la ( ölülər tanrılarına)
Payam verdi ki, ölkə əldən çıxır! Amma  EREŞKİGAL  onun sözünə baxmadı,  yer altından NUGİA-ları ( skeletləri) Yardım üçün göndərmədi. İŞİB ovsunla işini gördü. NAMTAR (can alan) hər skeletin yerinə bir qiyamçı cəsədini yer altına apardı...
Beləliklə  qiyamın odu söndü.  Amma LUGAL-ŞİMU yalnız NUGİA-lar ilə hakim oldu Və hökumət elədi...
*NANŞE yazısını yazıb qırağa qoydu...*

**

4

YOL

LAMA və URUK

Ürəyim, ay ürəyim, nə çırpınırsan ürəyim
Dalğa desəm az olar, qoy sənə dəniz deyim
Coşub daşan dənizim, nə çırpınırsan ürəyim?

Al məndən dağdağanı, al məndən üzüntünü
Al məndən iniltini, al məndən qürbəti
Al məndən acığı, al məndən nifrəti
Ver mənə dayanış, ol mənə dayaq
Ver mənə sevgini, ol mənə yoldaş
Gedirəm evimə
Gedirəm Uruk`a
mən.

*

Ey gecə-gündüzün, üfüq cizgisi, aç gündüzün qapışın mənə
Ey günəş sər qızıl saçların, aç qızıl gündüzün mənə
Aç qapını,  aç evi, aç odun -ocağın mənə
Gedirəm Uruk`a
mən.
Aç çayları,  aç dağları, göstər insanı, heyvanı mənə
Göstər ağacı ələfi, Göstər evimi mənə
Gedirəm Uruk`a
mən.


Nanşe

5
**LAMA VƏ NANŞE**

LAMA
-Göy üzündə süzən NANŞE, su üzündə üzən NANŞE
Qartalım durnam NANŞE, dənizdə balığım NANŞE
Ki-en-gir` in ulduzu, elimin aslan qızı
Əlimdən gələn yardım, sevgi ilə sənin olsun.
Dərdinə çarə yoxsa, çarələr sənin olsun.

**NANŞE**
-Nə görmüşəm yazmışam, al oxu DUB`ları Lama
Nə görmüşəm yazmışam, al oxu DUB`ları Lama.
Yaşam burda ağır keçir, ağır-ağır, axır geçir.
Dırnaq ilə daş qazmaq, daşdan su çıxartmaq
Yaşam burda ağır geçir.

Biri ağa, biri qul
Biri yeyir, biri baxır
Biri varlı, biri yoxsul
Biri yeyir, onu baxır
Yaşam burda ağır geçir.
Nə görmüşəm yazmışam, al oxu DUB`ları LAMA.

Biri diri biri ölü
Biri vurur mini ölür
Yaşam burda ağır geçir.

“Hamı işlər, hamı yeyər
Hamı deyib, hamı gülər”
Dərd olubdur ürəyimdə
Zaman burda ağır Keçər.

Canım Lama, gözüm Lama
Yaşam burda ağır Keçər.

LAMA
-Əli qurusun yazanın, yazını tərsə yazıb
Hamı yazılar yazılanda, Ki-en-gir-i tərsə yazıb
Sağdan yazılan, soldan oxundu
Soldan yazılan, sağdan oxundu
Əli qurusun yazanın, yazını tərsə yazıb
Hamı yazılar yazılanda, bizimkini tərsə yazıb.
*
İnsan olmayan yerdə
Tülkülər fərman verər
Dirilər olmayan yerdə
Ölülər fərman verər
İtə ət olmayan yerdə
Sümüklər fərman verər.
*
Əli qurusun yazanın, yazını tərsə yazıb
Hamı yazılar yazılanda, Ki-en-gir-i tərsə yazıb
*
Kölgələr kölgənin
Gündüzlər yolçunun olsun
Qızıllar əkinin
Gümüşlər ayın olsun
Gecələr yuxunun
Gündürlər toyun olsun.
*

Lama qurban Nanşə`yə
Genə görüşərik Nanşə
Gedirəm evimə
Gedirəm Uruk`a
                    mən .
*
**Nanşə**
-Əlim əlində, gülüm telində,
Gəl gedək, dəniz tərkinə, mehman ol Enki` qəsrinə.

Səmadan alıb rəngini dalğalar, şəfəqə bənzəyir incə balıqlar,
Dəniz dibində zümrüd qəsri var, gəl gedək mavilər tərkinə .

Ay minib qayığını, göy üzündə , calanıb mavilər hər sözündə
Gəz-dolan gəl sahilə, götürüm səni, Enki qəsrinə.

**


Ki-en-gir qadını



Enki



İlanlar, Sumer əsəri

*LAMA Uruk` u gəzəndən sonra, sahildə Nanşe ilə görüşüb, dənizin dibindəki laciverd sarayına, Nanşe` nin ayılası evinə, getdilər.*



Ki-en-gir qadını

**Nin-xur-san-ga** (Nanşe-nin anası, uşaqların qadın tanrısı):
-Səndə mənim bir balamsan
Xoş gəlibsən qızım  Lama.
Yeddim (qız) olsun səkkiz
Xoş gəlib sən, bala.

**LAMA:**
-Ana bildim, ata bildim
Öz evim bildim, gəldim.

ENKİ:
-İçdin NAM` ın suyunu
Gəlib çıxdın yerə bala
Xoş gəlibsən bizə LAMA.

LAMA:
-Enki baba
Ana Nin-xur-san-ga
Getdim gün batan yerə
Mələklər yatan yerə
Uruk` u gəzdim gəldim
Evinizi öz evim bildim, gəldim.
ENKİ:
-Nə gördün Uruk` da bala
Söylə bizə qızım Lama.

LAMA:

Hər insanın başı üstə
Bir sümük durub baba
Aparırlar taxılı
Vururlar anbara baba.
Kimi acdır, kimi nə sağ
Kimi qorxur Kimi qaçır.
*

Yer-göy canavar, səhrada şir
Inəyim ac, otumu özgənin malı yeyir.
Qara geyimli sümüklər, Uruk-da san keçir.
Adam bilməyir, hara getsin,  baba.

*

Arxlar təmizlənməyir, kir axıb getməyir
Əkinlər qalıb susuz, bol taxıl yetişməyir.
Ki-en-gir`i sümük dağıdır, Uruk`u Lugal talayır
Bağ-bağça, hasil üzü görməyir.
*
Nə görüşün dadı var, nə gülüşün duzu
Adam bilməyir, hara getsin ana
Hər insanın başı üstə, bir skelet durub baba.

**Nanşe:**
-Yaşam burda ağır geçir
Ağır-ağır
Axır geçir...

**Enki:**
-Apardı təqdir daşı` nı, oğru İM-DU-GUD
Axıtdı xalqın göz yaşını, abdal  İM-DU-GUD

URUK` da bir DUB-SAR var
Onun adı MUD başı
Gedin görün nə söyləyir
Bəlkə tapdı o quş-başı.

# MUD

**MUD:**
-Buyurun-buyurun əyləşin, Enki babanın qızları
Xoş dəldiniz, səfa gətirdiniz. Buyurun-buyurun əyləşin.

**LAMA:**
-DUB-SAR` ımız  sağ olsun
Bir sorğumuz var sizə
Minnətdarıq cavab verərsiniz bizə.

**NANŞE:**
-İM-DU-GUD oğurlayıb Təqdir` daşı` nı
Tapa bilərikmi, oğrunu, təqdir `daşı` nı?

**MUD:**

-Enki baba bilməyən yerdə
Kimsə bilməz bu sorğuya bir Cavab!
Gəlin keçin, bu sorğudan, bu işdən
Bada gedər yazıq ömür bu işdə
Dünya beş gündür, o da xoş gündür
Ağrımaz başınıza dəsmal bağlamayın.

Bırı yıxılarkən, bır təpikdə sız vurun
Qoymayın qalxsın o çamırdan
Sızı salar xəndəyə o quyuya,
Əlin tutub çəkərsiniz çamırdan.

qızım,  tutun mey məşuqu ,
Buraxın **An-zu**` nu , təqdir daşını.

Əzəldən sümük  işlədir
Bu dünyanın çarxını.

Fələyin çarxı dolanır əzəldən tərsinə
Kimsə çevirə bilməyib əzəldən onu.
Yaşayış bir yeldir
Hayandan gəlir, o yana süzün
Özünüzə mal-dövlət düzün.

LAMA:
-Sizə bir söz
DU-SAR ağa, unutmayın:
**Qayıq yatarsa, suya batar**
**Şəhər yatarsa, qana batar!**

**Qızlar:**
-Əlvida mey məşuq
-Əlvida beş gün , xoş gün.
-Siz sağ
-Biz səlamət.



Dubsar və qələm

7

**NAM**

*Nanşe qardaşı  ASAL-LU-Xİ-dən  təqdir daşının harada olduğunu soruşdu.*
*ASAL-LU-Xİ  Nanşe -yə dedi yaxşıdır ki, əmisi Enlil ilə danışsın.*
*Enlil  Enki təkin, İM-DU-GUD` u  ona  göstərdi.*
*
*Ancaq, Lama ENKİ babanın sözü ilə NAM adında bir DUB-SAR `ı  axtardı.*
*Yolda, evlərə yaxın, arx qırağında, uşaqlar oynayırdılar.*
Lama
-e i dumu-nita, gen-am3-mu-še!
-ey oğlan uşağı gəl buraya !

Uşaq
-he-am! silim-ma!
-hən! Silik-lik olsun(sağlıq olsun!)

Lama
-silim-ma! dumu-ĝu10,  ĝe26-e nin-LAMA-me-en. ne-ta é dub-sar me-ta-me?
-Sağlıq olsun! Balam, mən nın-lama-yam . Haradan dubsarın evinə gədər?

Uşaq
-aba?  e dub-sar?
-kim? dubsarın evi?

Lama
-he-am, dub-sar Nam
-hən, katib "Nam"

Uşaq
-gu2-e!
-Bu tərf!( -uşaq əlilə göstərdi).
Bu anda bir yaşlı qadın gəldi:
- "Gəlin mən sizə göstərim"-dedi.
*

*LAMA dubsar` ın evini tapıb onla danışdı:*
Dubsar:
-Siz necə buraya gəlib çatdınız, sümüklər hər yeri tutublar.
-Mən istəsəm görünərəm, istəməsəm görünmərəm.
-Mələk ki, mələk; ENKİ baba necədir.
-Sağ. Amma kirli yaşayışdan ürəyi kədərlidir.
-Bütün düşünən insanların, gözəl tanrıların, ürəyi qəmlidir. Mən ENKİ babanı çox sevərəm, bir taydan o mənim də babamdır.
-Necə ?
-Mən uşaq ikən, özgə, bizim kəndi taladı, qıranı qırdılar qırmayanı qulluğa apardılar. Mən ata-anasız qalarkən dağa qaçıb getdim. Aylar illər boyu meşədə qaldım. Orada İM-DU-GUD və baba Enki ilə tanış oldum. Baba məni evinə götürdü, mənə yazıb-oxuma, ədəb-ərkan, ox atma, qəmə vurma və ha belə bir şeyləri öyrətdi. Baba Enki mənim də babamdır.
-Baba söylədi: Apardı təqdir-daşı` nı, o oğru İM-DU-GUD, axıtdı xalqın göz yaşını, o abdal İM-DU-GUD.
Harada tapa bilərik oğrunu, təqdir-daşını?
- İM-DU-GUD ilə danışmaq gərək, təqdir daşının yerini soruşmaq gərək.
Elin dilini eldar bilər, quşun dilini quşbaz bilər, o quşla danışmaq gərək.
**
Qoy sənə söyləyim, tanrılar mələyi
Sökük yuvada qaldı, quşların teləyi
Başımın qəzası, quzular mələyi...

Meşədə yalqız qalarkən, heyvanlar içində
Öyrəndim heyvan dilini, quş dilini mən
Atadan uzaq düşdüm, anadan da
Unutdum ana dilimi, öz dilimi mən
Var olsun Enki baba, dadıma çatdı
Öyrətdi mənə, ana dilimi.

Heyvanlar içində, heyvan olmuşdum
İtirmişdim quş dilimi mən.
*

Sevdim heyvani, suyu, ağacı
Dağ-təpəni, dərəni mən.

Ağac əsəndə  məndə əsdim
Üşüdüm soyuqda,
Yarpaq ilə mən.

Birdən ceyran qaçdı, quşlar uçdu
Tanıdım o gözə görünməz,
Qorxunu mən.

Birdən fırtına qopdu, yuva pozuldu,
Pozğun yuvada, sınıq budaqda,
Bircə bir teləyi qurudum mən...

***

Bir dərin dostum var, dərələr kimi
Ucadır, uca dağlar kimi
Atadır meşəyə, analar kimi.
Bir dərin dostum var, adı XUM-BABA...

Söylədi mənə bir ata kimi:
“Nə anam var, nə də atam
Nə də kimsə böyüdüb məni.

Dağ-daşdan doğulmuşam
Ormanı qorumuşam
Yuxumu vermişəm ağaca mən.

Həmişə oyağam, oyaq qalmışam

Meşəni suvarmışam
Göz yaşımla mən.

Çoxdandır canımı ormana qurban demişəm
Qorxmayıram birdə doğulmayacağam mən.

Qorxum yoxdur ölümdən,
Meşəm getməz gözümdən
Sevgim edər əbədi məni...”
**
Atadan uzaq düşdüm, anadan da mən
Vuruldum dərin meşələrə  mən...
*

Sabah gəlin gedək  İM-DU-GUD` dun  yuvasına. O abdal quşun  oynağına ovasına...



İM-DU-GUD

8

**İM-DU-GUD**

*Qabaqda Nanşe ilə LAMA,*
*Onların dalısıca Nam gəlir.*
*Üçü də yaraqlı, oxa qəməyə nacağa*
*At ilə gedirlər meşəli dağlara.*

*Qızlar ağ paltarlı, çarıqlı,*
*Başlarında bir gül tac*
*Gün dəyməz üzlərinə kölgə salıbdır.*

*Nam, batıq çənəli, qaraşın üzlü*
*Dalda bağlanmış uzun telləri*
*Gözə çarpan, bir çini açıq*
*Gözəl bir dəri geyibdir*
*Dizdən yuxarı.*

*Bör- böcük , quşlar kölgə arayır*
*İlanlar susuz yuvada mələyir.*

*Yolları yarırlar, atlılar iti,*
*Uzaqdan gələn səslərdə*
*Diyəsən mal-davar mələ yer ...*
**

*Meşədə bir çinar, başı buludlar içində*
*Bir olub İM-DU-GUD, buludlar ilə*
*Yuvası buluddur, özü bulud*
*Səsində ildırım çaxır, buludlar ilə...*
*
NAM:
-Ay İM-DU-GUD! Ay İM-DU-GUD! Yatıbsan oyan!
NAM gəlib görsün səni , keçmişə götürsün səni.
Ay ! Yuvası buludda, özü bulud, göstər mənə bir ildırım səsini.
*Göy bulud gürüldədi, çaxdı ildırım. İti bir səs düşdü, meşəyə dağa.*

**İM-DU-GUD:**
- NAM! Xoş gəlibsən balam. Yekəlibsən NAM!
Gəlibsən, səfa gətiribsən.
Nə əcəb? Sən hara, Bura hara?

*İM-DU-GUD yenib qondu qayaya.*

-Səsindən sözlü adama oxşayırsan. At oxuyun balam!

NAM:
-İM-DU! Gəlmişəm təqdir daşını soruşam. Dünyanın çarxı tərsinə dolanır İM-DU!
-Ha ...ha ...ha! Təqdir daşını! Dünyanın Baş daşını! Hən?
Tərsinə dolanır dünya? Dirilərin daşı həmişə tərsinədir, NAM!... Ha ...ha ...ha!...
A kişi bu bir əski nağıldır, neçə min illik, əski nağıl...
Onu ENLİL` də bilir , ENKİ` də bilir.

NANŞE:
- Neçə min illik nağıl?!
LAMA

-Bu neçə min ildir yaşayır?
NAM:
-O buludlar ilə doğulubdur, onda bulud ömrü var.
Onun tarixi keçməz, zamansızdır *İM-DU-GUD*.
LAMA
-O Buludlar ilə yaşıddırmı!?

**İM-DU:**
-NİN-UR-TA daşı Əlimdən alanda, onu atdım dənizin lap ortasına.
NAM:
-Axı adam da, bağışla quş da, təqdir daşını dənizə atarmı İM-DU? Səndə heç bir ağıl varmı?
Haradan bilirsən düz dənizin ortasına atıbsan? O əyri- buyruq caynaqların ilə dənizi ölçdünmü İM-DU?
Niyə daşı oğurladın?
İM-DU:
-Oğurlamadım, qapdım qaçdım. Onu saxlamaq üçün ENLIL ‘l-də ərdəm yoxdur. Daşı boynundan açıb atmışdı qırağa. Getmişdi İNANNA ilə kef-damağa. Onu oğurlamadım, qapıb qaçdım. Enlil ağlını vermiş idi İNANNA` nın ağlına, onun istəklərini daşa yazmışdı. Hamısını sildim!
NAM:
- Əllərin ağrımasın, bağışla! Caynaqların ağrımasın, onları sildin, başqa yazılarını da sildin!
Axı dostum, güc bircə səninkidir yoxsa hamının? Axı səndə heç bir ağıl-huş varmı kainatın gücünə sahab olasan?... İndi biz o daşı harada tapa bilərik?

**İM-DU:**
-LUQAL` ın qəsri altında bir lağım var, düz gedər daşa , çarxa...
**NAM:**
- Sağ olsun İM-DU! Cavabımı aldım. Buludlar can, yaşasın İM-DU.

**XUM-BABA**

**NAM:**
-Bu nə haydı, bu nə qışqırıq? XUM-BABA` nın səsi gəlir...
Haydı dostlar! Haydı! Ormana sarı haydı!...

*XUM-BABA, NAM` ın atını görüb tanıdı.*

**XUM-BABA:**
-Atlılar ay atlılar !
Canım qurban atlılar.

XUM-BABA darda qalıb
Haydı gəlin atlılar !

LU-GAL  fərman verib, **sümük** dolub Ormana
Kəsib töküb sidrləri, salıb talan hər yana.

Saray tikir özünə, ağa ərbab sözünə
Evi qamış yoxsulun, əli darda boşlunun
Haydı gəlin atlılar
Atlılar ay atlılar ...

**NAM:**
-Birini soldan, birini sağdan
Tutun oxa SÜMÜK` ləri...

*NANŞE və LAMA `nın hər bir oxu ilə bir sıra  qara geyimli SÜMÜK od tütüb yanır. XUM-BABA əmud əlində ələ bil saxsı qırır! Amma qırılan SÜMÜK` lər yenidən bitişib ayağa qalxırlar!*
*NAM` ın oxu əsgərləri hədəf tutubdur.  Bu arada NAMTAR hazır olub can almağa!*
**LAMA:**
-Olan, NAMTAR! Al bu SÜMÜLK `lərin canını! Qoyma bitişsinlər!...

**NAMTAR:**
-Axı mən necə bunların canını alım, sümükdə ki, can yoxdur!...

*Düşmən bir az nacaq cida qaldırandan sonra, qaçmağa məcbur qalıb aradan çıxdı. XUM-BABA, LAMA və NANŞE ilə tanış oldu...*



KUR-NU-GİA(Gedər-gəlməz)



İGİ-KUR-ZA

*Üç yoldaş gizli yoldan lağıma girdilər, və  KUR-NU-GİA` ya (Gedər-gəlməzə , ölülər diyarına) sarı yola düşdülər.*

LAMA:
-Bax! Giriş qapısı!
**NANŞE**
-İGİ-KUR-ZA  *(igi-kur-ra; yer altının gözü*)

NAM:
-Giriş qapısı!
**LAMA:**
- Qapıçı aç qapını!
Aç yolu!  Aç qapını!
UTU deyib qonaq gələk
EREŞ-Kİ-GAL` ı görək gərək.
**QAPIÇI:**
-Dirilər ayaq basmaz “Gedər-gəlməzə” yolçu!
Bu yola ayaq basan, geri qayıtmaz yolçu!
**NANŞE:**
-UTU gedib, NANNA gəlib
 Sizə günəş, bizə ay gəlib.
Tut rəzəni, qapıçı! Aç qapını, qapıçı!
UTU deyib qonaq gələk
EREŞ-Kİ-GAL` lı görək gərək.
**QAPIÇI:**
-Mənim borcum deməkdir ,sizin borcunuz eşitmək
Gəlin gedin ikinci qapıya. Yol qayıtmaz birinci qapıya!
NAM:
-Tut rəzəni qapıçı !
Aç qapını, qapıçı !
UTU deyib qonaq gələk
EREŞ-Kİ-GAL` lı görək gərək.

QAPIÇI:
-Adın nə dir, soyun nə?
NAM:

-Adım NAM ,soyum da NAM.
QAPIÇI:
- NAM! Qulağıma dəyməyib belə bir Adam!
Sözə baxmayan, tanrı tanımayan
Özbaşına ! Özgür olan!
Qulağıma dəyməyib Belə bir adam!
*
İkinci! Adın nə dir, soyun nə?
-Adım LAMA, soyum da LAMA
QAPIÇI:
- Adın dəyib qulağıma LAMA!
NAM suyunu içib yerə enən LAMA!
Sözə baxmayan, tanrı tanımayan
Özbaşına, özgür olan!
Yerə enən LAMA!
Üçüncü! Adın nə dir, soyun nə?
NANŞE:
-Adım NANŞE, soyum Enki qızı Nanşe.
QAPIÇI:
-Dəniz ölkəli Enki qızı, sən hara-bura hara?
Dirilər ayaq basmaz, gedər-gəlməzə yolçu!
Sən hara-bura hara ?
NANŞE
-Tut rəzəni, qapıçı
Aç qapını, qapıçı
UTU deyib qonaq gələk
EREŞ-Kİ-GAL `lı görək gərək.
QAPIÇI:
-Gəlin gedin dördüncü qapıya...
4.Qapıçı:
-Daşın birinci kəlməsi nədir?
-ME!
-Gəlin gedin beşinci qapıya.

5.Qapıçı:
-Daşın ikinci kəlməsi nədir?
-AN!

-Gəlin gedin altıncı qapıya.
6.Qapıçı:
-Daşın üçüncü kəlməsi nədir?
-Kİ!
-Gəlin gedin  yeddinci qapıya.
**7.Qapıçı**:
-Daşın dördünü kəlməsi nədir?
-NAM!
-Xoş gəldiniz gedər-gəlməzə NAM!
Bura ayaq basan geri qayıtmaz NAM!...

Mələkliyi  tökün burda!
Insanlığı tökün burda!
Par-paltarı, yar-yarağı, tökün burda!
Xoş gəldiniz ölülərin diyarına!

Lüt gəlin, lüt gedin!
Diri gəlin, ölü gedin!
Qəm -qüssə  yeməyin
Ac oldunuz torpaq yeyin
Susadınız şirin sular için
Qanlı çaydan, odlu çaydan
Göz yaşı ilə dolu çaydan
Xoş gəldiniz, ölülər diyarına!

**Qızlar:**
-Ölüm-ölüm deyib,
Qorxutma bizi qapıçı!

Ölüm bizi  tuta bilməz
Əli bizə çata bilməz.

O gələndə mən gedərəm
Mən gələndə o gedər.

Ölüm bizi tuta bilməz
Əli bizə çata bilməz.
*
Ölüm-ölüm deyib,
Qorxutma bizi qapıçı!

Par-paltara nacağa
Sarılmışıq  yarağa.

Xurma deyilik əzilək
Arpa deyilik səpilək.

Ayrılmarıq yaraqdan
Par-paltardan, çarıqdan.

Çox özünü yorma Qapıçı!
Boş-boşuna danışma qapıçı!

NAM:
-Ay-Günəş` in qonağı
Boş olarmı otağı?
Çox özünü yorma qapıçı!
Boş-boşuna danışma qapıçı!

**Qapıçı:**
- INAN-NA  naz ilə gəldi, naz ilə soyundu.
Güc ilə gələn, güc ilə soyunar.

Tez olun soyunun! Lüt olum! Lüt!
Anadan doğma!
Özünü yorma!
Lüt olum! Lüt!

**NAMTAR:**
-Burada nə hay-ha-haydı, nə qalma-qaldı?
Qapıçı:
-Inan-na soyundu, bunlar soyunmur!
**NAMTAR**:
-Qoy getsinlər! Anam bilər, atam bilər, mən bilərəm. Qoy getsinlər!
Xoş gəldiniz bizim ölkəyə qonaqlarım...
Gedin anamın görüşünə...
Amma baxmayın onun can alan gözünə!...

11

**QƏSR**

*Ölülərin səsi gəlir:*

1. Dəstə:

-Tanrısan, gəlmə bura! Mələksən, gəlmə bura! Teləyini tökmə bura!
-İnsansan, gəlmə bura! Heyvansan, gəlmə bura! Tükünü tökmə bura!
-Ağacsan, gəlmə bura! Ələfsən, gəlmə bura!  Yarpağını tökmə bura!

2. Dəstə:
-Quzu oldum, anamı əmdim, qurd gəlib yedi məni!
-Xəstə bir qurd oldum, qartal gəlib diddi məni!
-Göydə bir qartal oldum, ox gəlib tutdu məni!
-Su gəldi basdı məni, yel gəldi asdı məni
Quruyub töküldüm, çöllərə basdı məni!

*Üç yoldaş üç çayın körpüsündən keçdilər. Odlu, Qanlı, Gözyaşı çaylarının şaqqıltısı kəsildi.*
*UTU,  qızıl tellərini hər yerə sərmişdi və o...o yuxarılardan qonaqlara şirin gülüş ilə xoş gəldin deyirdi.*
*Amma ölülər qaranlıqdan başqa bir şey  görmürdülər.*
*EREŞ-KİGAL` ın qəsri  gənc igid qızlar ilə qorunurdu.*
*Burda doğub çoxalma yoxdur. Və zaman, elə bil durubdur.*
*NAMTAR üç yoldaşı qəsrin qabağından götürdü və  anası EREŞ-KİGAL` in hüzuruna getdi...*

**NAMTAR:**

-Yüksək tanrımız EREŞ-KİGAL var olsun!

Yer üzündən qonaq gəlib, qoy könlünüz şad olsun!

EREŞ-KİGAL:
-Gəlsinlər!

LAMA:
Sevimli tanrımız EREŞ-KİGAL var olsun!
LAMA` yam, yüksək tanrımız  AN` nın mələyi
Öz sorğum yoxdur, elin sorğusunu gətirmişəm
Öz dərdim yoxdur, elin dərdini gətirmişəm.

NANŞE:
-ENKİ qızı NANŞE.
Öz sorğum yoxdur, el sorğusunu gətirmişəm
Öz dərdim yoxdur, el dərdini gətirmişəm.

NAM:
Yüksək tanrımız ENKİ` nin becərdiyi İnsan
URUK `un DUBSAR` ı  NAM!
Öz sorğum yoxdur, el sorğusunu gətirmişəm
Öz dərdim yoxdur, el dərdini gətirmişəm.

**EREŞ-KİGAL:**
-Yer üzünün sorğusu nədir? Dərdi nə?
LAMA:
- Böyük sevimli tanrımız, haçandan bəri, yer altı yer üstünün işlərinə qarışır?
NANŞE:
-Təqdir daşı yer altına gedibdir, izn verər sizmi axtaraq?
NAM:
-Min illik ölülər sizin, bugünkü dirilər bizim, yetərlimi, tanrım?
EREŞ-KİGAL:
-Daşı axtarın! Yer altı qarışmaz, yer üstünün işinə!

LAMA:
-Sümük yer üzünə hakimdir!
*EREŞ-KİGAL uca səslə:*

- NAMTAR! Bu nə sözdür?

NAMTAR:

-EREŞ-KİGAL sağ olsun! Doğrudur! İŞİB` in Skeletləri yer üzünə sahab olublar!

EREŞ-KİGAL:

- Oğlum NAMTAR! Nə çün onların canını almayırsan? Nədən yerimir fərmanım mənim?

NAMTAR:

-EREŞ-KİGAL sağ olsun !
Mən yerə tökülən canları yığıram, kimsənin canını almağa haqqım yoxdur!
Heç kimlə düşmən deyiləm, tərsinə hamı ilə dostluğum var mənim ...
Qaldı ki, skeletin canı yoxdur, bütün sümükdür!

**EREŞ-KİGAL:**

-Zamana ay zamana, xarab qalasan zamana! Gör nə fikirlər! Nə işlər...! Aman...! Yeni dövran əlindən, aman...! Götür! Götür igid qızları get, gün batmamış İŞİB` i və onun bütün skeletlərini yığ gətir buraya! Qonaqlar getsin daşın dalıca! Bir neçə igid qazıda qoş onlara!
Ölülər bizim, dərilər yerin, yetərlidir hər zaman.

*NAMTAR qoşunu yer üzünə apardı. Üç yoldaş , yeddi igid qız , mindilər qayığa getdilər çayların birləşən yerində, dənizin altına cumdular. Əlcə bir göy daş, bir əski çarxa asılmış idi. "**Bizdən yerlər**" dəstəsi ona gözətçi idi. Hamısı nacaqlı! Hamısı yaraqlı! Çox döyüş vuruşdan sonra ölən öldü, qalan qaçdı, ü ç yoldaş, yeddi qız təqdir daşını alıb qayıtdılar. NAMTAR da İŞİB və onun skeletlərini tutub* EREŞ-KİGAL -ın hüzuruna *gətirdi.*
*Bu arada EREŞ-KİGAL əri tanrı NERİGAL ilə danışdı.*

**EREŞ-KİGAL VƏ NERİGAL**

-İstəyirəm təqdir daşını özümə saxlayam! - EREŞ-KİGAL dedi.

- Yox! Anunnakı`ların əlindən qurtulacağımız olmaz. Daşın yiyəsi ENKİ -dir. Dənizin altındakı şeylər onunkudur. -NERGAL dedi.

-Qonaqlar qayıda bilməzlər! - *EREŞ-KİGAL dedi*

- Niyə? Onlar öz yerlərinə bizə bir dəstə canavar veriblər. "Min illik ölülər sizin, bugünkü dirilər bizim" demədilər mi?... . -*NERGAL dedi.*

*Bu danışıqdan sonra EREŞ-KİGAL gəlib taxtına çıxdı:*

-Hamisini aparın dustağa!- O deyib fərman verdi...

*Üç yoldaş təqdir daşını götürüb yer üzünə qayıtdılar və onu ENKİ` yə verdilər. ENKİ baba tərsə çarxın, uvand üzünü daşa yazdı. Hələlik... Çün daşın əski yazısı silinməz idi...*

*Xalq LUGAL `ı taxtdan saldı və özünə yeni bir hakim tikdi . Qul-qaravaş, bor-borclu azad oldu. Yoxsullar mal-davar sahabı oldular. Hamı işlədi, hamı yedi, hamı dedi, hamı güldü...*

*Hərə getdi öz işinə...*

*Bu arada ENKİ baba LAMA` ya xəbər verdi: İndi ki, ölülər dünyasından geri gəlibdi, göyə qayıda bilər, yolu açıqdır...*

*Amma LAMA! Nə istəyirdi göyə qayıtsın, Nə də yerdə bənd ola bilirdi. O nə yerli idi nə də göylü...*

*Tələyə düşmüş bir azğın quş kimi*
*Ürəyi çırpınırdı bir ovçu əlində...*
*Tufanda, bir ağac, bir budaq kimi*
*Yerdə çırpınırdı, bir özgə kölgə kimi...*



*ENKİ baba üç yoldaşı bir yerə yığıb dedi:*
- Fikir eləməyin təqdir daşı əlimizə gəlib çatdı hər şey düzəlib qurtuldu! Yox! Insanın **NAM`** ı (**iradəsi)**, düşüncəsi(**fikri**) var, o **qüdrət** sevən(güjçü), və **əhl-e kef**dir.
Bu dörd ünsür təqdirdən, tanrıların əmrindən, qıraqdadır. Bu əsasda insan özünə "cərgə" yaradır, və bir-birlə vuruşa, çəkən-bərkişə girir.
Lazımdır bu ünsürləri, hamının xoş yaşayışı üçün işə salasan, bir cərgə üçün yox.
Buna görə, yaxşı həyat yaratma işi sonsuzdur.
Bir-birinizdən ayrılmayın, yaşam olana qədər. Çalışmanın sonu yoxdur, insan durana qədər.
Qoy dilin açıq olsun, bəlkə həyatin üzü gülsün.
*
*Bu danışıqdan sonra üç yoldaş hərdən -bir, bir yerə yığışırdılar və xalqın həyati üçün əllər indən gələn işə əsirgəmirdilər.*
*
*Amma LAMA! Tələyə düşmüş bir azğın quş kimi , ürəyi çırpınırdı bir ovçu əlində...*

*O dərdini ENKİ` yə dedi, cavab aldı:*
- "NAM və LAMA, insan ilə mələk, bir-birini sevirlər. Ailə qurmaq istəyirlər. Olmayan bir iş!

Amma ağlıma bir fikir gəlir:  LAMA gərək mələkliyi ata, insanlığı tuta! O da Böyük tanrımız NAMA ` nın işidir. İşidir-mişidir, o böyük tanrın işidir .” - deyib söz verdi NAMA ilə danışsın...
*

*ENKİ baba gedib danışdı.*
*ANUNNAKİ` lər yığıncaq qurdular ki:*
*Sevgililərin birləşməsinə bir yol tapsınlar. Hamı qərar verdi: Mələk insan ola bilər, necə ki, insan da mələk ola bilər.  Amma mələk insanlığın acı-şirinini bilməli və ağıl üzərində onu seçməlidir...*
*
*NAM, LAMA` ya dedi:*
-Gəl bu işdən geç! Özüyün göydən yerə salma!
İnsanda bir şey yoxdur. Oda bir cürə heyvandır.
- Mələkdə də bir şey yoxdur, o da bir titrək xəyal kölgəsidir! -LAMA dedi.
-Sevgi dəlilikdir, bəzən də zır dəlilik.
-Bəlkə də bir iki taylı ilgi dir, ağıl və duyğu arasında- LAMA dedi.
-Nə bilim Lama, bəlkə də bunların və başqa bir şeylərin, hamısıdır. Bəlkə də sadəcə bir yoldaşlıqdır, Lama.
-“NAM! Nə bilim nədir, hər nədir ki, odur da”- LAMA dedi....
*
*Çox fikir danışıqdan sonra, çox zəhmətdən sonra, çox gün həftə aydan sonra, böyük qadın tanrı, NAMA` nın əmri ilə, mələk döndü insan oldu...*
*
*Beləliklə sevgi, bütün çətinliklərə güc gəldi...*

Son